# Azərbaycan – Belarus münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib



***Azərbaycan ilə Belarus arasında diplomatik əməkdaşlığın əsası 1993-cü il iyunun 11-də qoyulub. Ötən müddət ərzində ikitərəfli münasibətlərdə səmimilik, etibarlılıq və dostluq formalaşıb.***

Rəsmi Bakı və Minsk arasında dialoqun qurulması istiqamətində əməli addımlar isə Belarus Respublikası Baş nazirinin Azərbaycana səfəri zamanı, yeni 2001-ci ilin avqust ayında atılıb. 2004-cü ildə hökumət nümayəndələrinin qarşılıqlı görüşü reallaşıb. O zaman ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyası yaradılıb. Bu komissiya iqtisadi proqram və layihələrin həyata keçirilməsində müsbət rol oynayıb.

Xatırladaq ki, 2006-cı il Belarus-Azərbaycan münasibətlərində mühüm hadisə baş verib: Minsk və Bakıda diplomatik missiyalar fəaliyyətə başlayıb. Bununla da hər iki ölkənin humanitar, iqtisadi, siyasi sahələrdə qarşılıqlı səmərəli maraqları öz təsdiqini tapıb.

Bundan sonra Azərbaycan və Belarus respublikalarına qarşılıqlı rəsmi və işgüzar səfərlər intensivləşib. Bu səfərlərin nəticəsi olaraq ikitərəfli münasibətlərin inkişafı istiqamətində bir sıra prinsipial məsələlərin həlli yolları müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

İki ölkənin rəhbərliyi səviyyəsində sıx münasibətlər əlaqələrin bütün sahələrində öz əksini tapıb. Belarus və Azərbaycan rəsmiləri tərəfindən siyasət, iqtisadiyyat, vətəndaşların hüquqlarının və maraqlarının qorunması, səhiyyə, hüquq-mühafizə, humanitar və elmi-texniki əməkdaşlıq sahələrində 100-dən çox beynəlxalq müqavilə imzalanıb.

Hazırda iki ölkə arasında əməkdaşlıq münasibətləri yüksək səviyyədə inkişaf edir. Əlaqələrdə dinamizm müşahidə olunur. Qarşıda duran vəzifələr, rəsmi səfərlər və digər maraqlı məsələlər son nəticədə müsbət göstəricilərlə diqqət çəkir.

Prezident İlham Əliyev aprelin 14-də ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşündə bu barədə deyib: "Ölkələrimiz arasında münasibətlərin inkişafına görə çox şadam. Sizinlə biz əlaqələrimizə elə dinamizm gətirmişik ki, bütün istiqamətlər üzrə inkişaf olduğunu, razılaşdırdığımız məsələlərin praktiki həllini görürük. Qarşılıqlı səfərlərimiz müntəzəm xarakter daşıyır. Mən Belarusa səfərlərimi, Sizin Azərbaycana səfərlərinizi yaddaşımda təzələmişəm. Bütün bunlar ölkələrimiz arasında sıx qarşılıqlı siyasi əlaqə, yüksək səviyyədə etimad olduğunu və nəticəyə hədəflənməyimizi göstərir. Odur ki, qarşılıqlı iqtisadi fəaliyyət çərçivəsində yaxşı nəticələr görürük".

Dövlətimizin başçısının bu fikirləri son illərdə iki dövlətin ticari-iqtisadi əməkdaşlıq, maşınqayırma, inşaat, eləcə də enerji sektorunda yüksək göstəricilər əldə olunmasına əsaslanır. Belə ki, bu gün istehsal kooperasiyası və təchizatla yanaşı, kənd təsərrüfatı sahəsində qarşılıqlı əlaqələr sürətlə inkişaf edir. İstər Azərbaycan, istərsə də Belarus məhsulları hər iki ölkədə yaxşı tanınır. Bundan əlavə, Belarus ilə Azərbaycanın səhiyyə və əczaçılıq sahələrində qarşılıqlı fəaliyyət nəticəsində uğurlu göstəricilər əldə olunur.

Yaxın gələcəkdə bu əməkdaşlığın yeni inkişaf mərhələsinə daxil olacağı gözlənilir. Belə ki, Gəncə Avtomobil Zavodunun fəaliyyətinin gücləndirilməsi, Bakı metropoliteni üçün qatar tədarükünə başlanılması nəzərdə tutulur. Belarus ilə Azərbaycan arasında təhsil, kadr hazırlığı sahəsində əməkdaşlıq münasibətlərinin də gücləndirilməsi ən mühüm vəzifələr kimi qarşıda durur.

Hazırda iki ölkə arasında neft və neft məhsullarının istehsalı və reallaşdırılması sahəsində imkanların genişləndirilməsi nəzərdə tutulur. Aprelin 14-də SOCAR və Belarusun Dövlət Neft və Kimya Konserni ("Belneftexim") arasında qarşılıqlı anlaşma memorandumu imzalanması bunun bariz ifadəsidir.

Memoranduma əsasən, əməkdaşlığın əsas istiqamətlərini Azərbaycan neftinin Belarusa tədarükünün təşkili sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, həmçinin karbohidrogen ehtiyatları istehsalçıları və istehlakçıları arasında dialoqun genişləndirilməsi, Belarus neft emalı zavodlarında əməliyyat səmərəliliyinin artırılması üçün texniki auditin aparılması kimi məsələlər təşkil edir. Sənəddə, həmçinin Belarusda istehsal olunan neft məhsullarının reallaşdırılması, birgə investisiya layihələri və bu ölkənin bazarında SOCAR tərəfindən neft məhsullarının satışı sahələrində tərəfdaşlıq məsələləri də diqqət çəkir.

Son illərdə iki ölkə arasında idxal-ixrac əməliyyatlarında dinamik inkişaf müşahidə edilib. Keçən il pandemiyaya baxmayaraq, əmtəə dövriyyəsi artıb, ticarət dövriyyəsi 447 milyon dollar təşkil edib. Azərbaycandan Belarusa ixracın səviyyəsi yüksəlib.

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun ölkəmizə işgüzar səfəri çərçivəsində energetika, baytarlıq və turizm sahələrində imzalanan əməkdaşlıq haqqında anlaşma memorandumlarında nəzərdə tutulan müddəaların icrası, şübhəsiz ki, əməkdaşlığın daha da möhkəmlənməsinə öz müsbət təsirini göstərəcək.

> ***Belarus bizim dostumuz, sınaqdan çıxmış tərəfdaşımızdır. Təbii ki, biz onun təkcə işğaldan azad edilmiş ərazilərin bərpasında fəal iştirakına yox, həm də Ermənistanın tərəfdaşı, Ermənistanla bərabər Avrasiya İqtisadi Birliyinin və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü, eləcə də Azərbaycanın yaxın dostu, dünyada nüfuzlu ölkə kimi fəal iştirakına ümid bəsləyirik. Əlbəttə, mən əminəm ki, o, gələcəkdə Ermənistan ilə Azərbaycan arasında əlaqələrin nizamlanmasında mühüm rol oynaya bilər.***
>
> **İlham ƏLİYEV**
>
> **Azərbaycan Respublikasının Prezidenti**

Bütün bunlar barədə Azərbaycan və Belarus prezidentlərinin sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxışlarında ətraflı bəhs edilib. Dövlətimizin başçısı deyib: "Bizim münasibətlərimiz artıq zamanın sınağından çıxıb. Bu münasibətlərin çox yaxşı tarixi var. Biz qarşılıqlı əlaqələrimizin bütün dövründə həmişə münasibətlərimizin inkişafı ilə bağlı məsələləri həll etmişik. Bizim aramızda heç vaxt həll edilməmiş və ya hansısa operativ müdaxilə tələb edən məsələlər olmayıb. Biz hədəflərimizi çox dəqiq müəyyən etmişik, icraçılara konkret tapşırıqlar vermişik və qarşıya qoyulmuş məsələlərin reallaşdırılmasına nəzarət etmişik. Bundan ötrü müntəzəm görüşlər keçirmişik və keçiririk...".

Prezident İlham Əliyev daha sonra iki ölkə arasında fəal əməkdaşlıq münasibətlərinin mövcudluğunu, beynəlxalq strukturlarda tərəflərin bir-birini dəstəklədiklərini, bunun gələcəkdə də belə davam edəcəyini vurğulayıb. Dövlətimizin başçısı iqtisadi sahədə əlaqələrin getdikcə genişləndirilməsindən danışarkən, Belarusun rəhbəri ilə indiki görüşlərində bu əməkdaşlığın daha da möhkəmlənməsi məsələlərinin xüsusi yer tutduğunu, əmtəə dövriyyəsinin şaxələndirilməsi və artırılması çərçivəsində gələcək əməkdaşlığın konkret istiqamətlərinin müəyyən edildiyini xatırladıb. Eyni zamanda, Belarusa xam neftin çatdırılması hesabına ötən il əmtəə dövriyyəsinin xeyli artdığını, bu prosesin bundan sonra da sürətlə aparılacağını bildirib. Prezident İlham Əliyev daha sonra energetika sahəsində əməkdaşlığın genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıb.

Azərbaycan və Belarus respublikaları prezidentlərinin görüşlərində işğaldan azad edilən Qarabağ və ətraf rayonlarda tikinti-quruculuq, bərpa işlərinin aparılması barədə də danışılıb. Prezident İlham Əliyev mətbuata bəyanatında deyib: "Biz Qarabağda işğaldan azad olunmuş ərazilərin bərpasında bir sıra istiqamətlər üzrə - həm şəhərsalma, həm infrastrukturun yaradılması, kənd təsərrüfatının inkişafı sahələrində Belarus şirkətlərinin gələcək iştirakı ilə bağlı məsələləri ətraflı müzakirə etdik. Biz dünən də, bu gün də Belarusun aqroşəhərciklər yaradılması sahəsində təcrübəsini geniş müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə məlumat verdim ki, Qarabağ "yaşıl enerji" zonası elan edilib və birinci "ağıllı kənd" layihəsi praktiki olaraq həyata keçirilməyə hazırdır. Əlbəttə, bu sahədə Belarusun təcrübəsi nəzərə alınmaqla bu istiqamətdə işləmək çox maraqlı olardı...".

Dövlətimizin başçısı bəyanatında Azərbaycanın işğaldan azad edilən ərazilərinin bərpasına indiyədək üç dost ölkə şirkətləri tərəfindən başlanıldığını, bu sırada Belarusun da artıq yer aldığını vurğulayıb. Prezident İlham Əliyev, eyni zamanda, iki ölkə arasındakı münasibətlərdə sənaye kooperasiyasının çox böyük seqment olması, ona görə də bu layihənin Belarus traktorlarının yığılmasından başlayaraq, avtomobillər, yük maşınları, kombaynlar, avtobuslar istehsalı və "Yaşıl Qarabağ zonası" konsepsiyası çərçivəsində davam etdirilməsinin nəzərdə tutulması barədə də fikirlərini diqqətə çatdırıb.

Prezident İlham Əliyev bəyanatında azad edilən ərazilərimizdə işğalçılar tərəfindən törədilən vandalizm və barbarlıq, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməməsi, həmin qətnamələrin 27 il ərzində kağız üzərində qalması və təəssüf ki, bu sənədlərin implementasiyası mexanizminin işə salınmaması, bununla da Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın müstəqil surətdə nizamlaması məsələləri barədə ətraflı məlumat verib.

Yuxarıda qeyd edilənlər Azərbaycan-Belarus əlaqələrinin qarşılıqlı dostluq və tərəfdaşlıq prinsipləri üzərində qurulduğunu, uğurla inkişaf etdiyini və əməkdaşlığın strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini göstərir. Dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri, ölkə rəhbərlərinin şəxsi dostluq münasibətləri isə əlaqələrin daha da genişlənməsinə böyük impuls verir.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***